# ŞAİR SƏRDAR ƏSƏD

## “ARALANIB GÖZÜMDƏN FİKRİMDƏ YAŞAYIRSAN”

*(Əvvəli 8-ci səhifədə)*

Şəhəri buraxıb bu yad kəndə gəldiyi üçün peşmançılıq hissləri də baş qaldırır:

Lakin o biri tərəfini - onu razılıqla yola salanların narazılığını da düşünür, duyur:

Gözəldir! Sərdar bu cür epizodlarla o dövrün mühüm bəlalarından birini təsviir edirdi. Təkcə şəhərlilərin kəndə işləməyə getməsi deyil, kənddən şəhərə oxumağa gələnlərin də bir çoxu kəndə qayıtmaq istəmirdi.

Xəstələri də düşünür. Gərək qəlbində vətən, xalq sevgisi ola, insana sevgi ola ki, asanına qaçmayasan, çətinliklərə dözəsən:

Budur, elə səhəri gün qapısı döyülür: ağır xəstə var. İllər boyu övlad həsrəti çəkən kişinin - Kərəmin hamilə qadını can üstədir. Körpəni qurtarmaq bir yana, qadının da halı ümidsizdir:

Ata da, ana olmaq istəyən də, cərrah da çətin vəziyyətdədir. Kor ölüm qorxusu insanları çıxılmaz vəziyyətə salmışdır. Ananı da qurtarmaq, körpənin də xilas etmək:

Cərrahın ataya verdiyi "Siz cərrah olsaydınız, ananı, yoxsa körpəni xilas edərdiniz?"- sualı atanı ağır vəziyyətdə qoyur, onun həm övlad istəyi, həm də anaya məhəbbəti cərrahı qılınc kimi kəsir.

Ağır əməliyyatı başa vurub dincəlmək istəyən, şəhərdəki sevgilisinə gəldiyi gündən bəri ilk dəfə imkan tapıb məktub göndərmək istəyən cərrahın pəncərəsindən məktub atıb, onu şərləməyə, güllə ilə qorxutmağa çalışırlar. Poçtalyon qızın qardaşı Göygöz Əli istəyinə nail ola bilmədikdə ölüm ayağında olan qadının əri Kərəmi öyrədib həkimi məhkəməyə verməsini məsləhət görür. Həkim Baxışı başqa cəhətdən də təhdid edənlər tapılır. Fədakarlıqla işləməyə çalışan bu gənc, xəstələri buraxıb işçiləri pambığa çıxarmağı tələb edən, onu "uşaq" adlandırıb əyri yola çəkmək istəyən sovxoz direktoru ilə toqquşmalı olur. Həkim razı olmadıqda sovxoz direktoru da onun məhkəməyə verilməsini "haqlı" bilir.

Sərdar bu məsələləri bir qədər ehtiyatla işləmişdir. O dövrdə məktəbləri, xəstəxanaları bağlayıb pambıq toplanışına məcbur edirdilər. Sovxoz direktoru ağır xəstələri "xəstəxana istirahət yeri deyil" deyə işə çıxarmağı tələb edir. Sərdar belələrini kinayə ilə "qarın müdiri", "iştah naziri" adlandırır. Həkim müdirə kəskin cavab verir:

O dövrdə vəzifəlilərə, böyük vəzifə sahiblərinə belə cavab qaytarmaq mümkün deyildi, çünki bu cür tapşırıqlar xüsusilə 70-80-ci illərdə qeyri-rəsmi dövlət qanununa çevrilmişdi. Hələ 60-cı illərdə təzə başlanırdı.

Müəllif insan psixologiyası, insan düşüncə və davranışı, insan xarakteri barədə maraqlı müqayisələr aparır, onu anket sorğuları ilə, kitabla, maqnitofon lenti ilə, tutuquşu ilə, maşınla müqayisə etməyin mümkün olmadığını, insanın ağıl, düşüncə sahibi olduğunu göstərir:

Gözəl ümumtləşdirmələr aparmışdır:

Həkimin yuxusuz gecələri hesabına ana da xilas olur, əkiz uşaqlar da doğulur.

Eyni ideya Sərdarın "Cərrah ürəyi" poemasında da davam etdirilmişdir. Əslində, bunlar - "İki hökm" və "Cərrah ürəyi" poemaları eyni əsərlərdir. Əsas hadisələr eyni olduğu kimi, əsas qəhrəmanlar da eynidir: Övlad həsrətilə çırpınan ata - Kərəm, onun ağır vəziyyətdə olan hamilə qadını, gənc həkim Baxış.

«Cərrah ürəyi» lirik-epik bir əsər olub, eyni şəkildə övlad həsrəti ilə çırpının bir ata və ananın duyğu və düşüncələri üzərində qurulmuşdur. 19 illik ümid dolu arzulardan sonra dünyaya gələcək uşaq da, ana da cərrah bıçağı altındadır. Ata - Kərəm həyatını itirməkdə olan həyat yoldaşının və ilk övladının bu vəziyyətindən sarsıntılar keçirir.

Ananın və atanın övlad arzusu, övlad istəyi başqa heç bir əsərdə bu cür çılğınlığı ilə təsvir edilməmişdir. Əslində, onların övlad istək və arzusunun təsviri bir dastandır.

Cərrah bıçağı altında olan ana övlad həçrəti ilə, doqquz ay qarnında gəzdirdiyinin həsrəti ilə qovrulur:



Ata - enlikürək, dağları aşırmağa qadir olan Kərəm də cərrah bıçağı altında olan ana və balanı düşündükcə bir kölgəyə, bir əlçimə dönmüş, sıxılmış, acizləşmiş, kiçilmişdir. Belə bir vəziyyətdə də bala sevgisi ilə çırpınmaqdadır:

Atanın düşündüyü kimi, Övladsız ata-ana Yetimdən də betərdir!

Tərəddüdlər, bəlkələr, qorxu və narahatlıq:

Poema ata, ana sevinci ilə qurtarır. Övladı qurtarmaq mümkün olmasa da, ananı qorumaq mümkün olur, Kərəm cərraha minnətdar olmalı olur ki, onun həyat yoldaşını ölümün pəncəsindən xilas edə bilmişdir, körpəni qoruya bilməsə də, yenidən onu həsrətinə qovuşdura biləcək ananı qorumuşdur.

"Cərrah ürəyi" poeması jurnalda, "İki hökm" "Abşeron" qəzetində çap olunmuşdur. Görünür, əsər jurnalda çap edilərkən bir sıra dəyişikliklər edilməsi məsləhət görülmüşdür. Sovxoz direktoru ilə toqquşma, Göygöz Əlinin həkimi ləkələməyə çalışması, məhkəmə məsələsi, pəncərədən atılan məktub, xəstələrin xəstəxanadan çıxarılıb pambıq toplanışına aparılması məsələsi və s. poemadan çıxarılmış, əsər üzərində yenidən işlənmiş və bu prosesdə həm ananın salamat qalması, həm də əkiz övlad məsələsi də təsirlilik, obyektivlik baxımından dəyişdirilmiş, yalnız ananın salamat qalması, övlad istəyi ümidlərinin gələcəkdə mümkünlüyü nəzərdə tutulmuşdur.

Ailə-məişət, insani münasibətlər, var-dövlət hərisliyi, insanda tamahkarlıq kimi məsələlər də Sərdarı düşündürmüşdür. «Qız anası» poeması dünya malına həris olan, ərinə, övladına pul, gəlir mənbəyi kimi baxan bir ananın - Ənisə adlı qadının tamahkarlığından bəhs edən maraqlı bir əsərdir.

Poemanın əsas qəhrəmanı Ənisə son dərəcə tamahkar bir qadındır. Ərinə, övladına pul mənbəyi kimi baxır. Briqadirlikdən çıxarılan, qazancı azalan əri onun gözünə eybəcər görünməyə başlayır:

O, qızını varlı bir ailəyə calamaq, bolluca cehiz götürmək istəyi ilə xəyallanarkən qızı Alış adlı bacarıqlı və zəhmətsevər, cəsur bir gəncə qoşulub gedir. Ənisə bunu böyük facıə kimi qəbul edir:

Bu cür xasiyyətinin ucbatından qonum-qonşular da onunla əlaqəni kəsmişdir: Daş atılmış bir quş kimi, Qohum-qonşu uçdu getdi. Lakin gec də olsa, başa düşür ki, günah özündə, öz xislətindədir:

Şeirlərində olduğu kimi, poemalarında da Sərdarı əzab və nisgilləri hələ qəlblərdən çıxmamış müharibənin törətdiyi fəlakətlər düşündürmüşdür. "Süvari xatirələr", "Könül evi" poemaları Azərbaycanın bir sıra qəhrəman oğullarının rəşadətli döyüş yolunu bədiiləşdirmişdir.

"Süvari xatirələr" poeması Stalinqrad vuruşmalarında, Belorusiya cəbhələrində böyük döyüş yolu keçmiş, 42 yaşında qəhrəmanlıqla həlak olmuş həmyerlimiz general-mayor Yaqub Quliyevin həyat yolundan bəhs edir.

Süvari generalı Yaqub Allahqulu oğlu Quliyev haqqında ilk dəfə Şəmistan Nəzirli geniş araşdırmalar aparmışdır. Yaqub Quliyev 1900-cu il yanvarın 25-də Qarabağın Şuşa şəhərində anadan olmuşdur. 20-ci əsrin əvvəlində Şuşada ermənilərin törətdiyi qırğın nəticəsində bir sıra başqa ailələr kimi, Allahqulu kişinin ailəsi də Türkmənistana - Mərv şəhərinə köçmüş, bir müddət orada yaşadıqdan sonra Yolötən qəsəbəsində məskən salmışlar. Şuşadan köçəndə Yaqub altıaylıq uşaq olub. Orada oxuyub